**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

**Kitabxana İnformasiya Mərkəzi**

**Sumqayıt şəhəri Bakı Küçəsi 1, 43-cü məhəllə AZ5008 Telefon: +994-018-64-2-15-06**

**E-Mail: library@sdu.edu.az**

# SDU Kitabxana İnformasiya Mərkəzi

# Davranış Kodeksi

**Yaradılma tarixi:** 06.01.2025

**Son redaktə:** 03.03.2025

## Əsas müddəalar:

1. İstifadəçilərdən KİM-də yüksək səslə danışmamaları və məcbur qaldıqları halda maksimum dərəcədə aşağı səs tonu ilə danışmaları, digər istifadəçilərə hörmət etmələri və bütün mərtəbələrdə başqalarının narahatlığına səbəb olan hərəkətlərdən çəkinmələri gözlənilir.
2. Kitabxananın bütün ərazilərində ancaq qapalı və dağılmaq təhlükəsi olmayan su qablarından istifadəyə icazə verilir. Hər hansı digər içkilərin içilməsi və qidaların yeyilməsi qəbul olunmaz haldır.
3. Mobil telefonlar titrəmə və ya səssiz rejimə qoyulmalı, istifadə olunmaq zərurəti yarandığı halda mütaliə ərazisindən kənara aparılmalıdır.
4. Kitabxanada audio və ya videoya qulaq asarkən qulaqlıqdan istifadə edilməsi mütləqdir.
5. İmtahanlar ərəfəsində kompüter iş masalarının yalnız tədris məqsədləri üçün istifadəsinə icazə verilir.
6. İstifadəçilər mebel və digər kitabxana avadanlıqlarına qarşı ehtiyatla davranmalı, hər hansı bir kitabxana əşyasında eyni zamanda informasiya resursunda qüsur, zədə və ya nasazlıqlar aşkarladığı halda, bu barədə dərhal KİM əməkdaşlarına məlumat verməlҙri gözlənilir.
7. KİM-də mövcud olan texniki idarəetmə vasitələri (havalandırma, istilik sistemləri və s.), elektron cihazlar və s. avadanlıqlar yalnız KİM əməkdaşları və ya texniki işçilər tərəfindən idarə olunmalıdır. Istifadəçilərin onlara müdaxiləsi yolverilməzdir.
8. İstifadəçilər kitabları istifadə etdikdən sonra onları yenidən rəflərə qoymamalıdır. Oxuculardan kitabları xidmət masasına təhvil vermələri və ya masada buraxmaları tələb olunur.

**Qeyd*:** İtirilmiş və zədələnmiş, habelə sui-istifadə edilən kitabxana resurslarına görə cərimələr “Azərbaycan Respublikasının Kitabxana İşi haqqında Qanun”a əsasən tənzimlənir.

Kitabxana müdiriyyəti Kitabxana Qaydalarını pozan şəxslərin kitabxana imtiyazlarını dayandırmaq və ya geri götürmək hüququnu özündə saxlayır.